**Və keçmişdən, ya gələcəkdən gəldiyi bəlli olmayan uzaq bir fəhm pıçıldayır ki, SÖZlə başlayan dünya SÖZlə də qurtaracaq**

ESSE

# SİRLİ SÖZ QAPISI QARŞISINDA DÜŞÜNCƏLƏR



Sadıq ELCANLI



Dağlarında yemlik, turşəng yediyim, dərələrində kəklikotu, qaragilə yığdığım, yarğanlı güney yamaclarında yovşan, miyana ətrinə, quzeyində qaratikan güllərinin qızılı işığına heyrətləndiyim, zirvə zəhmli çayının dəli daşqınına, qara sellərinə, bulağının bəyaz təbəssümünə, ağ işığına, dumduru möcüzəsinə könül verdiyim köhnəlməyən köhnə bir kənd idi. Göylərindən Oğuz-Hun soraqlı quzğunların, dağlarından dəmirbilək dədələrin, düzlərindən qayım-qədim xatirələrin səsi gəlirdi. Qara qayasında Qaraca çobanların, Qızıl qayasında qızılbaş igidlərinin ruhu dincəlirdi; bacaları aram-arxayın tüstülənən, pəncərələri işıq-işıq gülən evlərində düzlük, halallıq yurd-yuva salmışdı, bin-binə bağlamışdı. Ağaclarının yaz çiçəkləri, bahar gülləri gözlərimdə gülürdü, bağlarının payız bolluğuna dədəmin xoşbəxtliyi salavat çevirirdi, yollarında, cığırlarında ruhum sevinir, uşaq duyğularım şahlıq edirdi...

Tale elə gətirdi ki, ikinci sinifdə oxuyanda hazırda Şabran rayonunda hörmətli həkim olan kiçik qardaşım İmanqulu ilə birlikdə doğma kəndimdən - Surradan ayrıldım, təhsilimizi Siyəzən şəhərindəki bir saylı orta məktəbdə davam etdirdik. Doğma kəndimə hüdudsuz sevgim, Siyəzəndəki təhsil illərimin qəribçilik duyğularına bürünən min bir acısı-şirini, ədəbi taleyimin ilkin yaşantıları "Yaddaş yarası" adlı mifoloji-fantastik romanımda qismən əksini tapıb. O roman məni yazıçılığa gətirən yolların əzəli yurd yeri, qəm qaynarı haqqındadır; yaralı yaddaş yollarında özümü axtarırdım.

Hər dəfə kitablarıma, xüsusilə, povest və romanlarıma gəlib çatan yolları düşünəndə, o əzəli yurd yerlərinin qəmli xatirələrindən keçəndə uzaq bir məktəb həyətində çiçəkləyən meşmeşi ağacları düşür yadıma...

Bir də qərib durna qatarı kimi nigaran, yorğun bir səs gəlir qulağıma: "A bala, belə zülm olmaz, dur yat, gözlərin tökülər..." Sübh namazına duran anam ikimərtəbəli evimizin quzey dağlara baxan eyvanındakı balaca mizin arxasında hələ də yazı yazdığımdan qeyzlənmişdi, bütün gecəni yazdığım qalaq-qalaq yazılara baxa-baxa demişdi bu sözləri.

Sonra ağappaq işıq selində qarqara gözləri tökülə-tökülə aylar, illər keçib getdi...

Bakıda kimya-biologiya təmayüllü məktəbi bitirib Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil oldum. Ötən əsrin 70-ci illərində "Ədəbiyyət və incəsənət" qəzetində Musa Yaqub haqqında "Təbiət şairi" adlı ilk məqaləmin, "Küçələrin nəğməsi" adlı ilk hekayəmin dərc olunduğu günün meşmeşi çiçəkləri kimi ağappaq sevincləri qalıb yadımda...

Günlərin bir günü "Yazıçı" nəşriyyatında "Sirli səsin sorağı" adlı ilk povest və hekayələr kitabım çap olundu. Sonra Azərbaycan Yazıçılar İttifaqının üzvlüyünə qəbul olundum. Sonra qalın jurnallarda hekayələrim, povestlərim, romanlarım işıq üzü gördü. "Bəsdir, ağlama" adlı bədii filmim, onlarla sənədli, elmi-kütləvi filmim çəkildi. Sonra "Əbədi sevginin xatirələri", "Mənim fikrimcə", "Yaddaş yarası", "Qanlı Quzgun meydanı", "Mənim mövqeyim", "Sükutun sonu", "Zülmət" və başqa kitablarım çap olundu, haqqımda məqalələr, diplom işləri, dissertasiyalar yazıldı...

Uzaq bir məktəb həyətində, meşmeşi ağaclarının ağappaq çiçək işığında ədəbi taleyimin ilk cümləsini yazdığım gündən sənətin sehrinə, tilsiminə düşdüm. Ürəyimdən xəbərsiz, ruhumdan uzaqda heç nə yazmadım. Hərdən mənə elə gəlir ki, bütün romanlarım, povestlərim, hekayələrim qəlbimdə, ruhumun çöllərində məndən çox-çox əvvəl yaşayan didərgin duyğularım, qərib xatirələrimdir; sadəcə, tale elə gətirib ki, mən onları yazıya almışam. Bəzən durna qatarı kimi itkin düşən o qərib və qədim xatirələr sirli bir səslə zaman-zaman çağırıb, əzablı yollarla çəkib aparıb məni. Və gedib sözün ədəbi sahillərində əbədi bir an xoşbəxt olmuşam. Hər dəfə qəzetlərdə, jurnallarda əsərlərim ürəyimcə çap olunanda, kitablarımın ilk nüsxəsini görəndə sevinmişəm - qızım Günelin, oğlum Qurbanın, nəvələrim Hüseynin, Qalibin, Fatimənin dünyaya gəlişinə sevindiyim kimi...

Mən nədən, necə, nə üçün yazıram? Bu, mənim üçün dünyanın ən çətin sualıdır. Həmişə kütləvi düşüncə bazarından, kütlə bozluğundan xalqa tərəf qaçmışam. Çünki Ziqmund Freyd demişkən, "Kütlə üzüyola heyvan sürüsünü, çobansız yaşaya bilməyən sürünü xatırladır". Mən həmişə illüziyanın həqiqəti, irreal şüurun real gerçəkliyi sıxışdırdığı kütləyə doğru yox, xalqa, xalqın xilaskar fitri-tarixi gücünə, etnogenetik yaradıcı yaddaş enerjisinə, ümummilli ruhun, insanın və xalqın qələbəsinə doğru getmişəm. Məsələn, Sovet dövründə, adətən, insan, xalq ədəbiyyatı yox, toplum, kütlə ədəbiyyatı yaratmaq mexanizmi işləyirdi; partiya maşınının "təkərciyi" və "vintciyi" hesab olunan ədəbiyyat çox halda xalqın kütləyə, sözəbaxan, işlək, sərfəli sosial sürüyə, manqurta döndərilməsinə xidmət edirdi; ədəbiyyat xalqın ruhuna yox, Staxanovçu əzələ enerjisinə üz tuturdu... Və bu yerdə düşünürəm ki, yazıçı qələmi gizli nüvə enerjisi kimidir; o, insanın, xalqın, bütövlükdə bəşəriyyətin xeyrinə də, zərərinə də işləyə bilər. Məncə, əsl ədəbiyyat qaranlıqda işıq, insanda insan, kütlədə xalq, xalqda millət oyatmalıdır.

Əsər yazmaq yayın qızmar istisində ürəyi yanan adamın buz kimi bulaq suyundan içməsinə bənzəyir; bulağı içib qurtarmaq hələ heç kimə nəsib olmayıb...

Ədəbi yolum işığa heyrətdən, o heyrətin uzaq bir şəhərin məktəb həyətində çiçəkləyən meşmeşi ağaclarına baxa-baxa yazdırdığı ilk cümlədən başladı: "Yaz elə həvəslə, həsrətlə gəlmişdi ki, ağaclar əcəl yuxusundan oyanıb heyrətlə ağappaq gözlərini açmışdı". Və əlli yaşımı "Zülmət" adlı mifoloji-fantastik romanla, 60 yaşımı 20-dən artıq əsəri birləşdirən "Yeni hekayələr" silsiləsiylə qarşıladım. Əslində, "Zülmət" romanı da işıq haqqındadır, daha doğrusu, işığın ölməsi haqqında; insanlıq adlı uzun yolun əvvəlində başlayan sonuna güzgü tutmuşam... O roman haqqında akademik Tofiq Hacıyevin "525-ci qəzet"də yazdığı böyük məqalə günlərlə ruhumda xoşbəxtlik şamları yandırdı. Böyük alim "Zülmət" romanım haqqında məqaləsini "Zülmət"in işığı" adlandırmışdı...

Ədəbiyyat təsəllidir, əbədi xoşbəxtlik ilğımıdır... Dünyanın bütün yolları işıqdan zülmətə doğru gedir; əsası odur ki, zülmətə doğru gedib İŞIĞI TAPA BİLƏSƏN...

Ədəbiyyat işıqdan zülmətə doğru gedən o qaçılmaz məhkum yollarda insana təsəlli verir, xoşbəxtlik ilğımıyla qoca, kədərli yolçunu ovundurmağa, xilas etməyə can atır. Bir sıra əsərlərimdə bu dərkimüşkül canatmanın, xilaskarlığın sirli-sehirli səslərini eşidib vahimələnmişəm; o vahimə anlarında SÖZün qələbəsinə heyrətlənmişəm; "Qanlı Quzğun meydanı" romanının "Qurbangahdan başlayan yol" fəslində olduğu kimi...

Ona inanıram ki, ədəbiyyat istedad və zəhmətin, sevgi və inadkarlığın, şövq və şərafətin doğma, genetik övladıdır. Yazıçılıq əzabdır, lakin səni sevdiyinə, həsrətin mənzil başına aparan, işığa, murada qovuşduran xoşbəxtlik yolunun əzabıdır. O da doğrudur ki, "İnsana xoşbəxtlik qədər bədbəxtlik də lazımdır", "Xoşbəxtlik xoşbəxtliyin içində deyil, onu əldə etdiyin anlardadır" (F.Dostoyevski).

Yaradıcılıq fenomenal hadisədir; burda xoşbəxtlikdən daha çox bədbəxtlik, ƏZAB hökmrandır. Etiraf edim ki, həm YAZI ƏZABINDAN qorxduğum üçün, həm də daha çox AzTV-dəki işimlə bağlı vaxt çatışmazlığından bəzən romandan qaçmışam; "Susqun səsin soyuğu", "Bir budağın tarixçəsi", "Yovşanlı yamacın qü-

rub çağında"... adlı hekayələrim aylarla roman çağırışlarıyla təngə gətirib məni; onları sürətlə hekayə qəlibinə salaraq, təcili şəkildə mətbuatda çap etdirərək böyük yazı zülmündən, hər şeyi udan, üyüdən vaxt dəyirmanından xilas olmağa çalışmışdım; qəlbinə, ruhuna hakim kəsilən o sirli çağırışları susdurmaq, əslində, mümkün deyil; hər dəfə o hekayələrlə üzüzə gələndə, əl tutub görüşəndə ruhumda küskün bir intizar körüklənir...

O dərkolunmaz İNTİZAR anlarında bağımda əkdiyim ağaclar dadıma çatır. Hətta, "Susqun səsin soyuğu" adlı hekayəmin ruhumdakı roman boşluğunu doldurmaq, deyingən intizarını susdurmaq ümidiylə bağımda bir şabalıd ağacı da əkmişəm...

İndi Bakıda, iş otağımda oturub bu yazını yaza-yaza o yaxın dostlarımı - o ağaclarımı qədirşünaslıqla düşünür, hər biri ilə öz dilində danışır, həsbi-hal edirəm.

Bu cavan, yaraşıqlı xartut ağacıdır, nədənsə, həmişə qəribə bir təlaş, giley-güzar içindədir; ona deyirəm ki, qardaşım, darıxma, hər şey yaxşı olacaq; bu sözdə yaxınlıqdakı göyəm ağacının təbəssümünü hiss edirəm...

Həmin sirli təbəssümdən iki cavan ağaca - ağca gavalıya və qəndisinab almasına da pay düşür. Baş tərəfdəki şabalıd ağacı isə öz intizarından əl çəkmir...

Bəli, bağımda əkdiyim, illər boyu nazını çəkə-çəkə böyütdüyüm ağacları ən yaxın dostlarım kimi hiss edirəm. Yazda ilahi bir eşqlə gül açan ağacların sevdalı gülüşlərini, bəzən qəfil qəhqəhələrini dinləməkdən, payızda barbəhərə hamilə ağaclarla duyğu dalğalarına, könül söhbətinə qoşulmaqdan gözəl nə ola bilər!..

Dediyim kimi, hər ağacın öz səsi, sözü, öz dünyası var; eləsi var ki, nərmə-nazik, dəymədüşərdir, bəzisi lirik təbiətli, bəzisi az qala roman ağırlığındadır; gülməkdən uğunub gedəni də var, il boyu qaşqabağı açılmayanı da...

Bu, güləyən lirik dostum badam ağacıdır, ən tez açan və ən gec solan möcüzəli çiçəkləri şahanədir; bu, meyxoş, sanki sərxoş alça ağacıdır, bir az gec, avqustun axırlarında yetişir, dadından doymaq olmur; bu gilas ağaclarının zəhmətkeşliyi, fədakarlığı valeh edir məni; bu nar ağacları çiçəkləyəndə cənnətdən gələn səsləri eşidə bilərsən; bu əncir ağaclarının roman-xatirələri bitib-tükənmək bilmir; bu subtropik feyxoa, kivi, muşmula ağacları hələ ki, Şabran torpağına uyğunlaşmaqla vaxt öldürür, baş girləyir; bu isə əzgil ağacıdır, elə bil böyüməkdən qorxur, xəsisliklə boy atır, dəmir kimi möhkəm, iradəlidir; meyvələri qar yağana qədər üstündə xarlanır; bu qızılgülləri oğlum Qurban əkib, qışda, qar yağanda da cənnət ətirli sehrli, ovsunlu güllər açır...

Bəzi əsərlərim, etiraf edim ki, ağaclardan, onların sirri-xuda dediklərindən başlayıb. Məsələn, 25 il əvvəl "Azərbaycan" jurnalında çap olunan "Yaddaş yarası" adlı romanımın ilk cümlələrini Şabranda, dədə kəndim Surranın kəklikotu məskəni olan Daşlı dərəsində tənha, qərib bir qərbi ağacı pıçıldayıb mənə. Yaxud, dediyim kimi, roman genişliyindən məni çağıran "Susqun səsin soyuğu" adlı hekayəm Qəbələdə, ömrünün yaz fəslində, cavan çağında quruyan qəm qalası şabalıd ağacının danışdıqlarıdı, kədər kəməndi xatirələridi...

Əslində, məni ədəbiyyata ilkin-əzəl uzaq bir məktəb həyətində çiçəkləyən meşməşi ağacları çağırıb. İlk ədəbi cümləmi Siyəzən şəhərinin o kədərli məktəb həyətində yaz çiçəkləriylə gah qəhqəhə çəkib gülən, gah buz dağlarına dönən meşməşi ağaclarına pıçıldamışam, sonra əllərim əsə-əsə yaşıl üzlü cib dəftərçəmin ilk səhifəsinə yazmışam: "Yaz elə həvəslə, həsrətlə gəlmişdi ki, ağaclar əcəl yuxusundan oyanıb heyrətlə ağappaq gözlərini açmışdı..."

O ilk ədəbi cümləmi yazdığım vaxt 9 yaşım vardı. Yaşıl üzlü balaca dəftərçəmə yazdığım o ilk cümlə illər boyu qoltuq cibimdə, ürəyimin üstündə gəzdi, sevincimin, kədərimin ortağı, ruhumun sirdaşı oldu; dar gündə əlimdən tutdu, dərdimə dayaq dayandı, xoş gündə ruhumun süfrə başında deyib-güldü, xoşbəxtliyin badələrini içdi...

"Əsərlərimi ömrümün zirvə həqiqətləri kimi yaşadım. "Əbədi sevginin xatirələri" romanında Adəm övladının həyat eşqinə, sonsuz sevgisinə sevindim, "Yaddaş yarası" romanında yurd yerinin yaralı yaddaş yollarından keçdim, "Qanlı Quzğun meydanı" romanında Oğuzun tarix meydanlarında dərdlə dola-dola düşündüm, "Zülmət" romanında balaca işığın ölümünə heyrətləndim... Və "Gedərgəlməz" adlı təzə romanımda qalalı qəlbin quzey qarları üşüdür, *sözün* güneyləri çağırır məni".

* * *

Qəlbin, ruhun dayaqları möhkəm olanda yaşamağa, yaratmağa nə var ki... Ömrüm boyu qəlbimin, ruhumun dayaqları dağlar kimi möhkəm, əyilməz oldu; o əyilməz dayaqlara arxalanıb SÖZün ön cəbhə xəttində, əbədi səngərlərində döyüşdüm. Uzaq dumanlar şəhəri Londondan, yaxın günəş paytaxtı Təbrizdən, əbədi ulduzlar şəhəri İstanbuldan keçdim. Şimal dənizinin sahilində, Norveçin Aberdin şəhərində qədim Qobustandan gələnlərin əbədiyyətə dönən səslərini eşitdim, Dəmir Qapı Dərbənddə, Oğuz, Hun qapılarında 1300 il əvvəlin Dədə Qorqud xatirələriylə əl tutub görüşdüm... Türkiyədə xocalar xocası, dahi türkoloq Bahəddin Ögelin, İngiltərədə fədakar ziyalı, professor Turxan Gəncəyinin, İranda məşhur doktor Cavad Heyətin, Borçalıda, Qarayazı ellərində az qala min yaşlı Aşıq Hüseyn Saraclının qonağı oldum, Aşıq Kamandarın, Aşıq Əhməd Sadaxlının səs-söz sehrinə düşdüm. Qarabağda Boyat, Koroğlu, Şahbulaq, Əskəran, Şuşa qalalarının əlini sıxdım, qapısını açdım, kədərinə boyun bükdüm, sevinclərinə boylandım. Böyük yazılardan, xüsusilə, romanlardan yorulanda, şəhərdən bezəndə Şabrana - 1600 yaşlı xatirələr qalası, zirvələr gözəli Çıraqqalaya pənah gətirdim; bu qalayla üz-üzə, göz-gözə, ürək-ürəyə ruhum dincəldi... Naxçıvanın ulu tarix yollarında dönə-dönə dolandım; bu müqəddəs məkanın şərəfli dünəni, uğurlu bu günü haqqında çəkilən 16 sənədli filmin ssenari müəllifi oldum. O filmlərin sonuncusu - "Şərqdə doğan günəş" filminin əvvəlində Naxçıvanın - Nuhçıxanın ilahi göndərişli tanrısal tarixinə, taleyinə heyrətləndim...

Həmin filmi çəkərkən ruhum Ağrı, Kəmki, İnandağ, Gəmiqaya, Əshabi-Kəhf, Əlincə, Çalxanqala zirvələrində dolanır, ən çox OYANIŞ, XİLAS haqqında düşünürdüm. Və düşüncələrimin qızıl qanadı nə Nuhu xilas edən əfsanəvi gəmi, nə Adəm övladlarını daş yuxusunda qurtuluşa qovuşduran Əshabi-Kəhf mağarasının mifik möcüzəsi idi; bütün olmuşların və olacaqların ən uca zirvəsi tanrısal SÖZ idi qəlbimə hakim. O heyrət zirvələrində qəfildən dərk elədim ki, bu dünyada hamı və hər şey yuxudadır; bircə ilahi göndərişli SÖZ oyaqdır; daha doğrusu, ədəbi söz əbədi oyanış, dirilik, xilas cəhdidir; Allahla bəndənin, bədənlə ruhun, cismlə canın sirli körpüsü, keçilməz keçidi olan SÖZün tilsimli yollarından, gedərgəlməz dolaylarından XİLAS CƏHDİNİN təngnəfəs səsləri gəlir.

Və keçmişdən, ya gələcəkdən gəldiyi bəlli olmayan uzaq bir fəhm pıçıldayır ki, SÖZlə başlayan dünya SÖZlə də qurtaracaq, dünya SİRRİ-XUDA SÖZ QAPISIDIR - HAQQA TƏRƏF AÇILIR...

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 4 fevral.- S. 23.**